Telman Ümman Tircanlı

## Həqiqət Acı Olmuş

Oyatmadı milləti
Nə çağırış, nə azan,
Nə Koroğlu nərəsi,
Nə haray deyən ozan.
Yatıb, dəymə, toxunma,
Hələ şirin yuxuda.

El-oba viran qalıb,
Qan tökülüb, can gedib,
Nə qədər ünvan gedib.
Düşmən qənim kəsilib
Bu vətənə, bu yurda.

Ora mənimdir deyir,
Bura mənimdir deyir.
Susur bu millət, susur,
Görən bu biganəlik,
Yoxsa qəbahət, qüsur?

Dinmir hələ, danışmır,
Daşmır səbr kasası.
Dağılsın, viran olsun
O eybəcər atətin,
Gəlib çata bilməyən
Lazımların masası.

Hara baxır kor dünya,
Görünmür həqiqəti.
Gör nə qədər alçalıb
Qalmayıb ədaləti.

Ey belə dünya, dağıl,
Hərə gündə danışır
Bizə neçə əfsanə,
Hekayə, neçə nağıl.

Həqiqət acı olmuş,
Bal kimidir yalanlar.
Koramallar yatsa da,
Hər gün çalır ilanlar,
Qafil çətin dil anlar.